**NBL Qlükozamin Xondroitin MSM**

Oynaqları və qığırdağı dəstəkləyərək, onların hərəkətliliyini və çevikliyini artıran təbii məhsul
Bioloji fəallığa malik qida əlavəsinə aid təlimat

**Tərkibi**

*Təsiredici maddə:* hər tabletin tərkibində 750 mq qlükozamin sulfata ekvivalent 995,02 mq qlükozamin sulfat KCl; 600 mq xondroitin sulfata ekvivalent 652,50 mq natrium xondroitin sulfat və 300 mq metilsulfonilmetan (MSM) vardır.
*Köməkçi maddələr:* mikrokristallik sellüloza (E460(i)), polivinilpirolidon (E1201), çarpaz bağlı natrium karboksimetilsellüloza (E468), yağ turşuların magnezium duzları (E470b), yağ turşuları (E570), polietilenqlikol (E1521).
*Örtük: Nutraficient Food Suplement Coating 114F280000 ağ* (polivinil spirti (PVA) (E1203), titanium dioksid (E171), polietilenqlikol (E1521), talk (E553b)), *Opadry fx qümüşü 62W28547* (natrium karboksimetilsellüloza (E466), maltodekstrin, dekstroz monohidrat, kalium alüminium silikat (E555)/titanium dioksid (E171), lesitin (soya) (E322)).

NBL Qlükozamin Xondroitin MSM kombinə olunmuş halda müştərək təsir göstərərək yeni qığırdaq sintezini stimulə edir və qığırdaq məhv edən fermentləri nəzarət altında saxlayır. MSM ağrını kəsir və iltihabəleyhinə təsir göstərir. Bu cür təsir xəstəliyin hüceyrə səviyyəsində müalicəsini təmin edir. Qlükozamin təbii metabolit olduğu üçün, onun uzunmüddətli istifadəsinin etibarlılığı müəyyən edilmişdir. MSM kükürdün üzvi mənbəyidir və kollagen istehsalı üçün tələb olunur. Qlükozamin sulfat ilə birlikdə istifadə edildikdə, MSM osteoartritin əlamətlərini azaltmağa kömək edir və ağrını azalmasında və fiziki gücün əhəmiyyətli dərəcədə artımında mühüm rol oynayır.

**İstifadəsinə göstərişlər**

NBL Qlükozamin Xondroitin MSM oynaqların zədələnməsinin inkişafını ləngidir, qığırdaq bərbası üçün imkan yaradır, oynaqların funksiyasını yaxşılaşdırır, oynaqları qoruyur və gücləndirir və osteartrit zamanı və oynaq zədələnmələrinin bütün digər hallarında xronik ağrını azaldır. Tərkibində MSM olduğu üçün, xroniki ağrı və iltihab simptomlarının azalmasına kömək edir. MSM kükürdün qığırdaq və oynaqlara nüfuzunu təmin edir, birləşdirici toxumanın elastikliyinin davamlılığının qorunmasında kömək edərək, oynaq ağrılarının azalmasını və elastikliyini təmin edir. Buna görə də, xüsusi ağrı və hərəkət məhdudiyyəti olan hallarda, ona üstünlük verilməlidir.

**Əks göstərişlər**

Qlükozaminə və yaxud hər hansı bir köməkçi madəyyə qarşı allergik reaksiyası olan xəstələr NBL Qlükozamin Xondroitin MSM qəbul etməməlidirlər.

**İstifadə qaydası və dozası**

NBL Qlükozamin Xondroitin MSM böyüklər üçün gündə 1 tablet iki dəfə, əsasən yeməklə birlikdə qəbul etmək tövsiyə olunur.

***Cədvəl. Qlükozamin Xondroitin MSM gündəlik dozasının tərkibi (2 tablet)***

| **Tərkibi** | **Gündəlik doza (2 tablet)** |
| --- | --- |

| | |
|---|---|
| Qlükozamin sulfat KCl (xərçəngkimilərin xitin örtüyündən alınmışdır) | 1500 mq |
| Natrium xondroitin sulfat | 1200 mq |
| Metilsulfonilmetan | 600 mq |

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Aktiv maddələr xərçəngkimilərin xitin örtüyündən əldə edildiği üçün, bu maddələrə qarşı allergik reaksiyaları olan xəstələrə NBL Qlükozamin Xondroitin MSM təyin edilməsi tövsiyyə edilmir.
Bu bioloji fəallığa malik qida əlavəsi böyüklər üçün nəzərdə tutulub.
18 yaşdan kiçik şəxslərə təyin edilməməlidir.
Bioloji fəallığa malik qida əlavəsini 3 aydan çox müddətində istifadə edildikdə, həkiminizlə məsləhətləşin.
Tövsiyə olunan gündəlik dozanı aşmayın.
Bu bioloji fəallığa malik qida əlavəsidir.
Bioloji fəallığa malik qida əlavələri normal qida rasionunu əvəz edə bilməz.
Tərkibində soya izləri ola bilər.
Hamiləlik və laktasiya dövründə istifadə etməzdən əvvəl həkiminizlə məsləhətləşin.
Dərman qəbulu və xəstəlik zamanı istifadə etməzdən əvvəl həkiminizlə məsləhətləşin.
Tərkibində GMO yoxdur.
Xəstəliklərin profilaktikası və müalicəsi üçün istifadə olunmur.

**Buraxılış forması**
NBL Qlükozamin Xondroitin MSM 60 örtüklü tablet plastik flakonda içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
**Dərman vasitəsi deyil.**

**Saxlanma şəraiti**
Orijinal qutusunda 25 °C-dən aşağı temperaturda saxlamaq lazımdır.
Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**İstehsalçı**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Sancaklar 81100 Düzce/Türkiye

**Lisenziya sahibi**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Ümraniye 34768 İstanbul/Türkiye